| | |
|---|---|
| **“Dövlət qeydiyyatına alınmışdır”** | **“Təsdiq edilmişdir”** |
| **Azərbaycan Respublikasının** | **Azərbaycan Respublikasının** |
| **Ədliyyə Nazirliyində** | **Təhsil naziri** |
| **Qeydiyyat № 1105-A1-422** | **______________ M.Ç.Cabbarov** |
| **10 fevral 2016 -cı il** | **18 dekabr 2015 -ci il** |

**Qeydiyyat və notariat baş idarəsinin**

**rəisi**

**İlqar Məmmədov ______________**

# Sumqayıt Dövlət Universitetinin

# NİZAMNAMƏSİ

**(2-ci redaksiyada)**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Sumqayıt Dövlət Universiteti (bundan sonra SDU) Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanına əsasən Azərbaycan Sənaye İnstitutunun bazasında yaradılmışdır. SDU öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrlərini, kollegiyasının qərarlarını və bu Nizamnaməni rəhbər tutur.

1.2. SDU-nun Nizamnaməsi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 yanvar 2011-ci il tarixli 9 nömrəli qərarı ilə təsdiq olunmuş "Ali Təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə (bundan sonra Nümunəvi Nizamnamə) uyğun olaraq hazırlanmışdır. SDU bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ali təhsil proqramlarını həyata keçirən, hüquqi şəxs statusuna malik təhsil müəssisəsidir.

SDU-nun hüquqi ünvanı: Sumqayıt şəhəri, 43-cü məhəllə, Bakı küçəsi 1.

1.3. SDU üçün maliyyə ili yanvarın 1-dən başlayıb dekabrın 31-də başa çatır.

1.4. SDU-da siyasi partiya və dini qurum strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.5. SDU işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, ali təhsil müəssisələrinə qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, ali təhsilin növbəti səviyyəsində təhsillərinin davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradır.

1.6. SDU-da təhsilalanların geyim forması universitetin əmri ilə təsdiq olunur.

1.7. SDU-nun təşkilati-hüquqi forması-qeyri kommersiya müəssisəsi, mülkiyyət növü – dövlət və statusu- ali təhsil müəssəsidir

SDU- ali təhsilin bütün səviyyələri üzrə geniş spektrli mütəxəssislər hazırlığını, əlavə təhsil proqramlarını həyata keçirən fundamental və tətbiqi elmi tədqiqatlar aparan aparıcı ali təhsil müəssisəsidir.

1.8. SDU-nun yaradılması, yenidən təşkili və ləğv edilməsi "Dövlət büdcəsindən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 14 may tarixli 67 nömrəli qərarına uyğun olaraq həyata keçirilir.

1.9. SDU-nun Nizamnaməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir. SDU-nun Nizamnaməsində edilən dəyişikliklər onun Elmi Şurası tərəfindən qəbul olunur və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

1.10. SDU-nun fəaliyyətinə xüsusi razılığın verilməsi (lisenziyalaşdırılması) və akkreditasiyası qanunvericiliyə uyğun olaraq həyata keçirilir. SDU təhsil fəaliyyətini göstərmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi razılıq (lisenziya) almalıdır. Xüsusi razılıq (lisenziya) müddətsiz verilir.

1.11. SDU-nun akkreditasiyası "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli qərarına əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir və akkreditasiya haqqında sertifikat verilir. SDU-nun akkreditasiyası təhsil prosesinin təşkilinin, maddi-texniki bazasının, təhsil proqramlarının,

elmi fəaliyyətinin, kadr potensialının, maliyyə resuslarının və təhsil infrastrukturunun qəbul olunmuş dövlət standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılır və təhsil müəssiəsinin statusunun müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə ("Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddətlərdən az olmamaq şərtilə) uzadılması üçün hüquqi təminat yaradır.

1.12. SDU-nun bazasında özündə müxtəlif tipli təhsil müəssisələrini birləşdirən komplekslər (kampuslar) yaradıla bilər. Onların yaradılması, yenidən təşkili və ləğvi təsisçinin vəsatəti əsasında "Dövlət büdcəsindən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 14 may tarixli 67 nömrəli qərarına uyğun olaraq həyata keçirilir.

1.13. Ali təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədi ilə SDU digər ali təhsil müəssisələri ilə öz aralarında sazişlər bağlamaq, elm, istehsal və digər müəssisə, təşkilat və idarələrin iştirak etdiyi tədris-tərbiyə komplekslərində birləşmək, tədris elmi – istehsal birlikləri (assosiasiyaları) yaratmaq, ərazi tədris istehsal birlikləri və assosiasiyalarına daxil olmaq hüququna malikdir.

1.14. SDU-nun fakültələri, kafedraları, tədris şöbələri, kitabxanaları, elmi tədqiqat və sınaq laboratoriyaları, doktorantura və əlavə təhsil üçün müvafiq bölmələr, qeydiyyat ofisləri, tədris-təcrübə təsərrüfatları, idman bazaları və digər struktur bölmələri fəaliyyət göstərə bilər. SDU-nun strukturu onun Elmi Şurası tərəfindən müəyyənləşdirilir və universitetin rəhbəri (rektoru) tərəfindən təsdiq edilir.

SDU-nun struktur bölmələri tədris prosesi və tədqiqat işlərinin təşkilində, onun həyata keçirilməsində bilavasitə iştirak edir, universitetin Elmi Şurasının qərarlarını, rektorun əmr və sərəncamlarını yerinə yetirirlər. Struktur bölmələrinin rəhbərləri SDU-nun rektoru tərəfindən təyin olunur.

1.15. SDU qanunvericiliyə və bu nizamnaməyə uyğun olaraq, ölkənin və xarici dövlətlərin ərazisində (Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı əsasında) filiallar açmaq hüququna malikdir. Filialın rəhbəri (direktoru) SDU-nun vəsatəti əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təyin edilir. Filiallar öz fuksiyalarını müstəqil olaraq həyata keçirir. Filialin fəaliyyətinin idarə edilməsi SDU-nun və filialın nizamnamələrinə uyğun həyata keçirilir.

1.16. SDU-da təhsil dövlət hesabına və ödənişli əsaslarla həyata keçirilir.

1.17. SDU təhsil, tərbiyə və elm mərkəzi kimi aşağıdakı vəzifələri yerinə yetirir:

- hər bir şəxsin intellektual, mədəni və mənəvi inkişafı, ali təhsilalma tələblərinin ödənilməsi;
- təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkil edilməsi;
- elmi araşdırmaların aparılması;
- yüksək ixtisaslı elmi-pedaqoji, elmi kadrların hazırlanması;
- qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil, mədəni-maarif, nəşriyyat, müalicə diaqnostika, maliyyə-iqtisad, təsərrüfat, elm-istehsalat sahələri üzrə kommersiya fəaliyyəti ilə məşğul olunması;
- beynəlxalq fəaliyyətin və xarici əlaqələrin təmin edilməsi.

Həmin vəzifələri yerinə yetirmək üçün SDU:

- dövlət təhsil standartlarına və ayrı-ayrı ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun tədris sənədlərini və tədris prosesinin təşkilinə aid digər sənədləri səlahiyyətləri çərçivəsində müstəqil hazırlayır;
- tədris prosesini təşkil edir və onun monitorinqini həyata keçirir;

- təlim prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə edir;

- elmi, ixtisaslaşdırılmış və dissertasiya şuralarının işini təşkil edir və həyata keçirir;

- profilinə uyğun elmi tədqiqat işlərini həyata keçirir və elmi- metodik sənədlər hazırlayır;

- elmi-praktik konfranslar, seminarlar, olimpiadalar, müsabiqələr, sərgilər və s. təşkil edir və həyata keçirir;

- elmi əlaqələr yaradır, təhsil və elmi-texniki əməkdaşlıq haqqında saziş və müqavilələr bağlayır, təhsillə bağlı layihələrdə, o cümlədən, beynəlxalq layihələrdə iştirak edir;

- təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinin tətbiqi ilə bağlı müasir informasiya və elmi-metodiki təminatını, qlobal internet şəbəkəsi üçün informasiya resurslarını yaradır;

- elmi əsərləri, dərslik, dərs vəsaiti, tədris və tədris metodik ədəbiyyatları hazırlayır və nəşr edir;

- tələbələrə və professor-müəllim heyətinə idman-sağlamlıq, iaşə və məişət xidmətləri təşkil edir və göstərir

- təsərrüfat və maliyyə fəaliyyətini həyata keçirir;

- maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində işlər görür;

- müəllim-tələbə mübadiləsini və onların xaricdə təcrübə keçmələri üçün beynəlxalq əlaqələr yaradır.

1.18. SDU-da mütəxəssislər və elmi-pedaqoji kadr hazırlığı üç səviyyədə hazırlanır:

- bakalavriat;
- magistratura;
- doktorantura.

Ali təhsil pilləsində aşağıdakı təhsilalma formaları vardır:

- əyani;
- qiyabi;
- distant (məsafədən).

1.19. Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə genişprofilli, ali təhsilli mütəxəssislər hazırlanır. Bakalavriat təhsili başa çatmış ali təhsildir. Bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 4-5 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyənləşdirilir. Bakalavriatı bitirən məzunlara "bakalavr" ali peşə-ixtisas dərəcəsi verilir. Bakalavriat təhsili almış məzun, elmi tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla, bütün digər sahələrdə əmək fəaliyyəti ilə məşğul ola bilər. Bu təhsil səviyyəsini bitirən şəxslər təhsillərini magistratura səviyyəsində davam etdirə bilərlər. Bakalavriat təhsilinin məzmunu və təşkili Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun olaraq müəyyən edilir.

1.20. Magistratura ali təhsilin ikinci səviyyəsi olmaqla, ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur.

Magistratura səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 1,5-2 ildir. Qiyabi forma üzrə təhsil müddəti altı ay artıqdır. Bu müddət ayrı-ayrı ixtisaslaşmaların təhsil proqramları ilə müəyyənləşdirilir. Magistratura səviyyəsini bitirən şəxslərə "magistr" ali elmi-ixtisas dərəcəsi verilir. Magistraturanı bitirmiş şəxslərə peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi- pedaqoji işlərlə məşğul olmaq hüququ verilir. Bu təhsil səviyyəsini bitirən şəxslər təhsillərini doktoranturada davam etdirə bilərlər.

Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcəsinin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na əsasən müəyyən edilir.

1.21. Ali təhsilin üçüncü səviyyəsi doktoranturadır. Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Elmi dərəcələr ali təhsil müəssisələrində və elmi təşkilatlarda fəaliyyət göstərən dissertasiya şuralarının vəsatəti əsasında qanunvericiliyə uyğun olaraq verilir.

Azərbaycan Respublikasında fəlsəfə doktoru (elm sahələri göstərməklə) və elmlər doktoru (elm sahələri göstərməklə) elmi dərəcələri müəyyən edilir.

Doktoranturaların yaradılması və doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na əsasən həyata keçirilir.

1.22. SDU-da, elmi və digər təşkilatlarda çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır.

SDU-nun kadrlarına elmi və pedaqoji fəaliyyət sahəsində əldə etdikləri nəticələrə görə müəyyən edilmiş qaydada elmi adlar verilir. Azərbaycan Respublikasında aşağıdakı elmi adlar müəyyən edilir:

- dosent;
- professor.

Dosent və professor elmi adlarının verilməsi qaydaları və şərtləri Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilir.

1.23. SDU öz imkanları daxilində nizamnaməyə uyğun olaraq ali təhsilin müvafiq səviyyəsini bitirmək haqqında dövlət sənədi olan vətəndaşların təkrar ali təhsil üzrə əlavə təhsil almasını təşkil edir. Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsili almış şəxslərə müvafiq sənədin verilməsi "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr 163 nömrəli qərarına əsasən müəyyənləşdirilir və bu təhsil ödənişli əsaslarla həyata keçirilir.

1.24. SDU-da tədris ali təhsilin ayrı-ayrı səviyyələri üzrə təhsilin məzmununu və mənimsəmə qaydalarını müəyyən edən təhsil proqramları (kurikulumları) üzrə həyata keçirilir.

1.25. SDU-nun hüquqları:

- SDU öz adından müqavilə bağlamaq, əmlakına sərəncam vermək, məhkəmədə iddiaçı və cavabdeh kimi çıxış etmək hüququna malikdir.

- SDU-nun nəzdində müxtəlif pillələrdə olan təhsil müəssisələrinin (lisey, kollec, gimnaziya və s.), elmi-tədqiqat mərkəzlərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilə bilər.

- SDU öz işini müstəqil şəkildə planlaşdırır, təlim-tərbiyə, elmi-tədqiqat, metodik, maliyyə-təsərrüfat, iqtisadi, kommersiya və s. məsələləri sərbəst şəkildə həll edir, təlimin forma və metodlarını müəyyən edir, universiteti kadrlarla komplektləşdirir, müəyyən olunmuş əmək haqqı fondu çərçivəsində universitetin struktur quruluşunu və ştat cədvəlini təsdiq edir, maliyyələşdirmənin müxtəlif növlərindən sərbəst istifadə edir, universitetdə olan iaşə xidməti üzərində ictimai nəzarəti həyata keçirir.

- SDU digər təhsil müəssisələri ilə sazişlər bağlamaq, elmi, istehsalat və digər müəssisə, təşkilat və idarələrin iştirak etdiyi tədris-tərbiyə komplekslərində birləşmək və tədris, elmi-istehsalat birlikləri və assosiasiyalarına daxil olmaq hüququna malikdir.

- SDU maddi-texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsi dövlət büdcəsinin vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirilir. SDU göstərdiyi xidmətlər (tədris, elmi-tədqiqat və digər xidmətlər) nəticəsində daşınan və daşınmaz əmlak, o cümlədən, bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri və s. əldə edə bilər.

## 2. SDU-ya TƏLƏBƏ QƏBULU

2.1. Ali təhsilin bakalavr səviyyəsinə tam orta təhsili və orta ixtisas təhsili olan şəxslər, magistratura səviyyəsinə isə bakalavr səviyyəsini bitirən şəxslər ixtisasın və təhsil müəssisəsinin sərbəst seçimi əsasında, müsabiqə yolu ilə müəyyən olunmuş qaydada qəbul oluna bilər.

SDU-ya tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

2.2. SDU-nun bakalavriat, magistratura, doktorantura səviyyələrinə və elmi təşkilatların doktoranturalarına əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında, habelə, SDU ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxs arasında bağlanan müqaviləyə uyğun olaraq ödənişli əsaslarla həyata keçirilir.

2.3. SDU-ya tələbə qəbulu planı müvafiq dövlət, həmçinin, ayrı-ayrı müəssisə və təşkilatların sifarişi əsasında, SDU-nun imkanları nəzərə alınmaqla, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən müəyyənləşdirilir.

2.4. Hər bir təhsilalan, valideyn və ya digər qanuni nümayəndə SDU-da tədris prosesini tənzimləyən aşağıdakı hüquqi sənədlərlə tanış ola bilər:

- SDU-nun Nizamnaməsi;
- təhsil sahəsində fəaliyyət üçün xüsusi razılıq (lisenziya);
- SDU-nun dövlət akkreditasiyası haqqında sənədi.

2.5. Təkrar ali təhsil üzrə qəbul Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

## 3. SDU-nun TƏDRİS FƏALİYYƏTİ

3.1. SDU-da tədris dili dövlət dili - Azərbaycan dilidir. SDU-nun imkanları nəzərə alınmaqla, təlim başqa dillərdə də aparıla bilər.

3.2. SDU aşağıdakı təhsil proqramlarını həyata keçirir:
- bakalavriat;
- magistratura;
- doktorantura;
- əlavə təhsil.

3.3. SDU-da beynəlxalq təhsil proqramları da həyata keçirilir. Beynəlxalq təhsil proqramları üzrə mütəxəssis hazırlığı dövlətlərarası müqavilələrə, müvafiq qanunvericiliyə və SDU-nun Nizamnaməsinə əsasən tənzimlənir.

3.4. Ali təhsil proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" ilə müəyyənləşdirilir.

3.5. Ali təhsilin səviyyələrində ixtisaslar üzrə təhsil proqramlarında aşağıdakı fənn bölmələri nəzərdə tutulur:

Bakalavriat səviyyəsində:
- Humanitar fənlər;
- ixtisasın peşə hazırlığı fənləri.

Humanitar fənn bölməsi sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı təmin edir.

İxtisasın peşə hazırlığı fənləri ixtisasa dair standart və qeyri-standart məsələləri həll etmək üçün lazımi bilik, bacarıq və vərdişlərin öyrənilməsini təmin edir.

Ümumi auditoriya saatlarının 15-20 faizi humanitar fənlərin, 80-85 faizi isə peşə hazırlığını təmin edən fənlərin tədrisinə ayrılır.

Humanitar fənn bölməsinə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dili" (xarici dildə təhsil alanlar üçün), "Xarici dil" fənləri daxildir. Bakalavriat səviyyəsində təkrar ali təhsil alanlar üçün ixtisaslar üzrə təhsil proqramlarına uyğun qısaldılmış proqramlar da tətbiq edilir. Qısaldılmış təhsil proqramlarına yalnız ixtisasın peşə hazırlığı fənləri daxil edilir. Bu proqramlar üzrə təhsil qısaldılmış müddətdə başa çatdırılır;

Magistratura səviyyəsində:

İxtisaslar üzrə təhsil proqramları təhsil və elmi-tədqiqat hissələrindən ibarətdir. Təhsil hissəsinə ayrılan saatların həcmi 40-50 faiz təşkil edir.

Təhsil hissəsində aşağıdakı fənn bölmələri nəzərdə tutulur:
- humanitar fənlər;
- ixtisaslaşma fənləri.

Bu təhsil proqramları üzrə humanitar fənlər bölməsinə ümumi auditoriya saatlarının 25-30 faizi, ixtisaslaşma fənlərinə 70 faizi ayrılır.

Humanitar fənn bölməsinə məcburi fənlər kimi "Xarici dil", "Ali məktəb pedaqogikası" və "Psixologiya" fənləri daxildir.

İxtisaslar üzrə bakalavr və magistr təhsil proqramlarının bütün fənn bölmələrinə seçmə fənlər daxildir. Hər iki proqramda seçmə fənlərə ayrılan saatların həcmi ümumi saat həcminin 25-30 faizini təşkil edir. Həmin fənlər SDU tərəfindən müəyyənləşdirilir.

3.6. Ali təhsil pilləsinin ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təhsil proqramları müvafiq tədris-metodiki sənədlər əsasında həyata keçirilir. Bu sənədlərin formaları Azərbaycan Respublikası Təhsil Nazirliyi və SDU tərəfindən müəyyənləşdirilir.

3.7. İxtisaslar üzrə təhsil proqramlarında normativ təhsil müddətləri dövlət təhsil standartı ilə müəyyən edilir.

3.8. İxtisaslar üzrə tədris prosesinin təşkili ali təhsil pilləsinin dövlət təhsil standartına uyğun hazırlanmış və SDU-nun rektoru tərəfindən təsdiq edilmiş tədris planı əsasında həyata keçirilir.

SDU-nun bakalavr pilləsində tələbələrin həftəlik maksimal tədris yükünün həcmi 45 saatdır (auditoriya və auditoriyadankənar məşğələlər nəzərə alınmaqla).

Auditoriya dərsləri həftədə bakalavriat səviyyəsində 30 saatdan, magistratura səviyyəsində isə 16 saatdan çox olmamalıdır.

Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilir və bir kredit 30 saata bərabərdir. SDU-da kredit sistemi ilə tədrisin təşkili Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş qaydada həyata keçirilir.

Əyani forma üzrə məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları ilə müəyyənləşdirilir.

Qiyabi forma üzrə isə tələbələrin auditoriya dərslərinin həcmi ildə bakalavriat səviyyəsində 180-240 saata, magistraturada isə 120-160 saata qədər nəzərdə tutulur.

Hər tədris ilində təlim müddəti sentyabrın 15-dən başlanır və ixtisas üzrə tədris planına müvafiq olaraq yekunlaşır.

Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq yay semestri də təşkil oluna bilər.

Tədris ilinin müddəti 40 həftədir. Hər semestr 20 həftədən (5 həftə imtahan sessiyası) ibarətdir.

Bütün təlim müddətində istehsalat təcrübəsi üçün nəzərdə tutulan müddət bakalavriat səviyyəsində 8-18, magistratura səviyyəsində isə 8-10 həftədir.

Hər tədris ilində tətil müddəti 8-12 həftədir (o cümlədən, qış tətili müddəti 2 həftədən az olmayaraq).

Ali təhsil müəssisələrində dərs növlərinə mühazirə, seminar, nəzəri, praktiki və laboratoriya məşğələləri, yoxlama işləri, elmi tədqiqat işləri, kurs işi (layihəsi) və s. daxildir.

Akademik saat - 45 dəqiqədir. Bütün növ dərslər üçün 2 akademik saat müəyyənləşdirilir. Akademik saatlararası fasilə 5 dəqiqədən az olmamalıdır.

Ali təhsilin bakalavriat və magistratura səviyyələrinin proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Dövlət attestasiyası bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir.

Təhsilalanların yekun attestasiyası Dövlət Attestasiya Komissiyası tərəfindən həyata keçirilir. Dövlət Attestasiya Komissiyasının yaradılması və işinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir. Aralıq attestasiya imtahan formasında keçirilir, hər semestr üzrə imtahanların siyahısı təhsilalanların nəzərinə çatdırılır.

Təhsilalanların cari, aralıq və dövlət attestasiyası zamanı biliyinin qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir və bu sistemdə A (əla), B (çox yaxşı), C (yaxşı), D (kafi), E (qənaətbəxş), F (qeyri-kafi) qiymətləri müəyyənləşdirilir. Balların göstərilən qiymətlər üzrə bölgüsü Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyən edlilr.

İmtahan sessiyalarının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi, dövlət attestasiyasının keçirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən və bu Nizamnamə ilə müəyyənləşdirilir.

3.9. SDU-da əyani forma üzrə dövlət hesabına təhsilalanların fəaliyyətini stimullaşdırmaq məqsədi ilə onlara qanunvericilikdə müəyyən edilimiş qaydada təqaüdlər (o cümlədən adlı təqaüdlər) və yardımlar verilir.

3.10. SDU-da təhsilalanların bir təhsil proqramından və ya bir ali təhsil müəssisəsindən digər ali təhsil müəssisəsinə köçürülməsi, xaric edilməsi, akademik

məzuniyyət verilməsi və SDU-ya bərpa olunması məsələləri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydalarla tənzimlənir.

3.11. Ali təhsilin bakalavriat və magistratura təhsil proqramlarını başa vurmuş və yekun dövlət attestasiyasından keçmiş tələbələrə SDU-nu bitirməsi barədə dövlət nümunəli sənəd (diplom) verilir. Həmin diploma əlavədə təhsilalanlar tərəfindən mənimsənilmiş fənlər, onların kreditlə həcmi və qiymətlər göstərilir. Doktoranturada təhsilini başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na əsasən həmin elmi dərəcəni təsdiq edən vahid formada dövlət nümunəli sənəd – diplom verilir.

SDU-nun bakalavriat və magistratura səviyyələrinin məzunlarına onların arzusu ilə Avropa Komissiyası, Avropa Şurası və YUNESCO/CEPES-in və ona müvafiq Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümunəsinə uyğun SDU tərəfindən hazırlanmış diploma əlavə də verilə bilər.

Ali təhsilin müvafiq səviyyələrini bu və ya digər səbəbdən başa vurmayan təhsilalanlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na uyğun olaraq SDU tərəfindən arayış verilir.

## 4. SDU-da ELMİ FƏALİYYƏT

4.1. SDU-da mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir.

4.2. Ali təhsil pilləsində elmi araşdırmalar SDU-nun müvafiq qurumlarında və ya bölmələrində (kafedralarda, elmi- laboratoriyalarda və s.) aparılır.

4.3. SDU-nun elm sahəsində fəaliyyəti onun profilinə uyğun elmin müvafiq sahələrinin inkişafına, elmi tədqiqatların nəticələrinin tədris prosesinə tətbiqinə yönəldilir.

4.4. SDU-da aparlan elmi tədqiqat işləri fundamental və tətbiqi xarakter daşıyır.

4.5. Elmi fəaliyyət professor-müəllim heyətinin işinin tərkib hissəsidir. SDU-da elmi tədqiqat işlərinin aparılması və təşkili qaydaları Nümunəvi Nizamnamə və bu Nizamnamə ilə müəyyənləşdirilir.

4.6. SDU aparılan elmi tədqiqat işlərinin nəticələrini istehsalata və tədris prosesinə (mühazirə, məşğələ, seminar, laboratoriya dərslərinə, kurs layihələrinə, kurs və buraxılış işlərinə, magistr dissertasiyalarına) tətbiq olunmasını və monoqrafiyalar, elmi məqalələr, dərsliklər, dərs vəsaitləri, metodik vəsaitlər şəklində dərc olunmaqla, elmi forumlarda məruzə edilərək yayılmasını təşkil edir.

4.7. SDU-da aparılan elmi tədqiqat işlərinin nəticələri professor-müəllim heyətinin müəyyən vəzifələrə seçkisi və təyin olunması zamanı nəzərə alınır.

4.8. Təhsil sistemində aparılan elmi araşdırmalar dövlət büdcəsi, müxtəlif fondlar, SDU-nun büdcədənkənar və sifarişlər əsasında daxil olan vəsaitləri, eləcə də qrantlar hesabına həyata keçirilir.

4.9. Təhsilin inkişaf problemləri ilə bağlı elmi araşdırmalar innovasiya xarakteri daşımaqla, təhsil tarixinin öyrənilməsinə, təhsilin təşkilinin və idarə olunmasının təkmilləşdirilməsinə, tədris prosesinin müasir metodlarla qurulmasına, tədrisin yeni texnologiyalarının və digər istiqamətlər üzrə pedaqoji innovasiyaların hazırlanmasına və tətbiqinə yönəldilir.

## 5. SDU-nun İDARƏ OLUNMASI

5.1. SDU-nun idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədi ilə SDU-da idarə və özünüidarə orqanları (ümumi yığıncaq, himayəçilər, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları) yaradıla bilər. Həmin qurumlar SDU-nun Elmi Şurasının qərarı ilə yaradılır. Yaradılan hər bir qurumun səlahiyyəti SDU-nun Elmi Şurasının qərarı ilə təsdiq edilir və bu Nizamnaməyə əlavə olunur.

5.2. SDU-nun ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şura seçkili orqandır, onun yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə", Nümunəvi Nizamnamə və bu Nizamnamə ilə tənzimlənir.

5.3. SDU-nun fəaliyyətinə bilavasitə rəhbərlik rektor tərəfindən həyata keçirilir. SDU-nun rektoru Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunur və ya vəzifəsindən azad edilir.

Rektor əvəzçiliklə təyin oluna bilməz. Rektorun səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Mütəxəssis hazırlığının keyfiyyətinə, SDU-da tədris, elm, tərbiyə, maliyyə-təsərrüfat işlərinin təşkilinə və büdcənin icrasına görə məsuliyyət daşıyır;
- SDU-nun inzibati-funksional idarəetmə strukturunu və ştat cədvəlini təsdiq edir;
- SDU-nun fəaliyyətinin nəticələrinə görə tam məsuliyyət daşıyır və mövcud qanunvericiliyə uyğun olaraq SDU-nun adından fəaliyyət göstərir;
- bütün orqanlarda, yuxarı təşkilatlarda, idarələrdə, müəssisələrdə və s. onu təmsil edir;
- müqavilələr bağlayır, etibarnamələr verir, bankda hesab açır;
- öz səlahiyyəti daxilində bütün işçilər, doktorantlar, tələbələr üçün məcburi olan əmrlər, sərəncamlar və göstərişlər verir;
- prorektorların konkret vəzifələrini və məsuliyyətlərini müəyyən edir;
- əmək qanunvericiliyinə uyğun olaraq ali məktəbə kadrların seçilməsini və yerləşdirilməsini (təsisçinin nomenklaturasında olanlardan başqa) həyata keçirir.

SDU-nun idarə edilməsi ilə bağlı məsələlərə təhsili idarəetmə orqanları istisna olmaqla, dövlət və yerli özünüidarəetmə orqanların və digər təşkilatların müdaxiləsinə yol verilmir.

5.4. SDU-nun ayrı-ayrı struktur bölmələrinə rəhbərliyi prorektorlar, dekanlar, müvafiq bölmələrin müdirləri həyata keçirir.

5.5. SDU-da müvafiq sahələrə rəhbərlik bilavasitə: Tədrisin təşkili və təlim texnologiyaları, Elm və innovasiyalar, Humanitar məsələlər, Ümumi işlər, Qiyabi, distant və əlavə təhsil, İqtisadi məsələlər üzrə prorektorlar tərəfindən aparılır.

Prorektorlar rektorun təqdimatı ilə Təhsil Nazirliyi tərəfindən təyin olunurlar.

5.6. SDU-nun tədrisin təşkili və təlim texnoloqiyaları üzrə prorektoru universitetin tədris, tədris-metodiki və tərbiyə işlərinə bilavasitə nəzarət edir, həmin işlər üçün rektor qarşısında cavabdehlik daşıyır. Onun əsas vəzifələrinə aşağıdakılar daxildir:

- fakültə və kafedralarda tədrisin təşkili;
- tədris-metodiki və tərbiyəvi işlərin təşkilinə nəzarət;
- tədris-köməkçi qurumların işinə rəhbərlik, tələbələrin pedaqoji, tədris və istehsalat təcrübələrinin keçirilməsinə nəzarət;
- tədris-metodiki konfransların təşkili işinə rəhbərlik;
- rektor olmadıqda onun səlahiyyətini icra etmək.

5.7. Elm və innovasiyalar üzrə prorektor elmi və elmi-metodiki işlərə bilavasitə rəhbərlik edir və həmin işlər üçün rektor qarşısında cavabdehlik daşıyır. Onun əsas vəzifələrinə aşağıdakılar daxildir:

- kafedraların elmi tədqiqat və elmi-metodiki işlərinin təşkili;
- elmi konfransların təşkili;
- tədqiqatçıların hazırlanmasına və elmi-pedaqoji kadrların ixtisasının artırılmasına nəzarət;
- elmi nailiyyətlərin xalq təsərrüfatına tətbiqi üzrə tədbirlərin işlənməsi;
- elmi-tədqiqat bölməsinə rəhbərlik;
- tələbə elmi cəmiyyəinə rəhbərlik;
- elmi-tədqiqat laboratoriyalarına rəhbərlik.

5.8. Qiyabi, distant və əlavə təhsil üzrə prorektor qiyabi, distant və əlavə təhsil üzrə tədris, tərbiyə və metodiki işlərə bilavasitə rəhbərlik edir. Həmin işlər üçün rektor qarşısında cavabdehlik daşıyır.

5.9. Humanitar məsələlər üzrə prorektor SDU-da tərbiyə işlərinə bilavasitə rəhbərlik edir, həmin işlər üçün rektor qarşısında cavabdehlik daşıyır. Onun əsas vəzifələrinə aşağıdakılar daxildir:

- fakültə və kafedralarda, digər struktur bölmələrdə tərbiyəvi işləri əlaqələndirir, ona nəzarəti və rəhbərliyi həyata keçirir;
- tələbələrin tədris proseslərində və dərsdənkənar vaxtlarda tərbiyəsi ilə bağlı keçirilən tədbirlərə nəzarət edir və istiqamət verir;
- humanitar məsələlər ilə bağlı keçirilən bütün tədbirlərdə iştirak edir;
- SDU-nun tərbiyəvi tədbirlərini digər ali məktəblərdə aparılan tərbiyəvi işlərlə əlaqələndirir.

5.10. İqtisadi məsələlər üzrə prorektor SDU-nun maliyyə və təsərrüfat işlərinə bilavasitə rəhbərlik edir, həmin işlər üçün rektor qarşısında cavabdehlik daşıyır. Onun əsas vəzifələrinə aşağıdakılar daxildir:

- SDU-nun auditoriyalarında, kabinet və laboratoriyalarında, tədris-idman bazalarında, yataqxana və yeməkxanalarda sanitar-gigiyenik vəziyyəti və qayda-qanunu təmin edir;
- tikintiyə, kapital və cari təmirə rəhbərlik edir;
- tədris binasını, laboratoriyaları, kabinetləri, təsərrüfat və mədəni-məişət müəssisələrini avadanlıqlarla, inventar və materiallarla təmin edir;
- tələbələrin və professor-müəllim heyətinin maddi-məişət şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər keçirir;
- rektorun tapşırığı ilə maliyə-təsərrüfat məsələsi üzrə digər müəssisələrlə müqavilələr bağlayır.

5.11. SDU-nun tədris hissəsinin müdiri:

- fakültə və kafedralarda tədris-metodiki işlərinin təşkilinə və tədris-metodiki şöbənin işlərinə rəhbərlik edir;
- SDU-da tədris planları və proqramlarının yaradılması və təkmilləşdirilməsi üzrə bütün işləri istiqamətləndirir;
- tədris yükünün bölüşdürülməsi prinsiplərinin əsaslarını təyin edir. Dərs yüklərinin kafedralar üzrə bölgüsünə və yerinə yetirilməsinə nəzarət edir. Kafedraların ştat cədvəlini planlaşdırır;
- tədris-metodiki işlərlə bağlı bütün məsələlərin həllində iştirak edir;
- kafedralarda professor-müəllim, eləcə də tədris-köməkçi heyət ştatlarının müəyyənləşdirilməsi, tədrislə bağlı bütün statistik məlumatların hazırlanması və aidiyyatı üzrə göndərilməsinə rəhbərlik edir;
- tədris hissəsi işçilərinin fəaliyyətinə istiqamət verir;
- tələbələrin dərslərinin tədris planına uyğun normal keçirilməsini təşkil edir;

- tələbələrin kurs imtahanlarının keçirilməsinə, akademik borcların ləğvinə, məsləhət saatlarının təşkilinə və keçirilməsinə, onların dərsə davamiyyətinə nəzarət edir.

5.12. Magistratura və doktorantura şöbəsinin müdiri magistraturaya və doktoranturaya qəbulu planlaşdırır, elm və innovasiyalar üzrə prorektorun imzası ilə Təhsil Nazirliyinə təqdim edir. Doktoranturaya sənəd qəbul edir və müzakirə üçün müvafiq kafedralara göndərir, müzakirə nəticələrini doktorantın sənədləri ilə birlikdə elmi şuraya təqdim edir.

Doktorantların və dissertantların mövzularını təsdiq etdirir və mövzuların işlənməsinə nəzarət edir. Doktorantların təhsilini təşkil edir, onun təyinatı ilə bağlı məsələnin həllində iştirak edir.

5.13. Fakültə SDU-nun tədris, elm və inzibati bölməsi olub, eyni sahə və istiqamət daxilindəki bir və ya bir-birinə yaxın olan bir neçə ixtisas üzrə bakalavr, magistr hazırlanmasını, müvafiq sahə üzrə mütəxəssislərin (kadrların) ixtisasının artırılması (və yenidən hazırlanmasını) işini həyata keçirir, eləcə də elmi tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir.

SDU-nun fakültələrinə ümumi rəhbərlik fakültə elmi şurası tərəfindən həyata keçirilir. Fakültə elmi şurası SDU-nun rektorunun əmrinə əsasən 3 il müddətinə seçilir. Fakültə Elmi Şurasının sədri – dekandır. Fakültə Elmi Şurasının vaxtından əvvəl seçilməsi onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə və ya SDU-nun rektorunun təqdimatına əsasən keçirilə bilər. Fakültə elmi şurasının tərkibi rektor tərəfindən təsdiq edilir. Fakültə elmi şurasının tərkibi və səlahiyyətləri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş qaydalarla tənzimlənir.

5.14. SDU-nun fakültələrinə qanunvericiliklə müəyyən edilmiş qaydada həmin vəzifəyə seçilən dekanlar rəhbərlik edir.

Dekan:

- fakültədə tədris prosesinə, tərbiyə işlərinə və elmi tədqiqatların yerinə yetirilməsinə bilavasitə rəhbərlik edir;
- təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartlarının tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin edir;
- tələbələrin dərslərdə iştirakını təmin edir;
- tələbələrin elmi, pedaqoji və istehsalat təcrübəsinin həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;
- fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçirilməsinə nəzarət edir;
- tələbələrin müstəqil işlərinə nəzarəti təşkil edir və onların elmi fəaliyyətləri üçün şərait yaradılmasını təmin edir;
- tələbələrin imtahanlarının keçirilməsinə nəzarəti təşkil edir, bütün imtahan sessiyalarının normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;
- tələbələri tələbələr sırasından xaric etmək və bərpa etmək üçün rektora təqdimatlar verir;
- tələbələrin buraxılış dövlət imtahanlarına, buraxılış diplom işlərinin və magistr dissertasiyalarının müdafiəsinə buraxılmasına icazə verir;
- fakültədə dövlət hesabına təhsil alan tələbələri mövcud qaydada təqaüdə təqdim edir;
- fakültədə çalışan professor-müəllim heyətinin ixtisasının artırılması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;
- fakültədə doktorların təhsilin lazımi səviyyədə təşkil olunmasını təmin edir, onların attestasiyalarını keçirir;

- fakültənin profilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodik göstərişlərin hazırlanmasına təşəbbüs göstərir və bu işə ümumi rəhbərlik edir;
- kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;
- ümumfakültə elmi-metodiki və elmi seminarlarının təşkilini təmin edir;
- fakültədə hazırlanan ixtisaslar üzrə peşəyönümü işinin aparılmasını təşkil edir və onun lazımi səviyyədə aparılmasına məsuliyyət daşıyır;
- ali təhsilin hər üç səviyyəsi üzrə fakültədə hazırlanması mümkün və zəruri olan ixtisasları, ixtisaslaşmaları müəyyənləşdirir, illik və perspektiv qəbul planları üzrə SDU-nun rəhbərinə təkliflər təqdim edir;
- fakültə elmi şurasına rəhbərlik edir;
- SDU-da fakültə ilə bağlı bütün tədbirlərdə, komissiyalarda, yığıncaq və şuralarda fakültəni təmsil edir;
- müavinlərinin təyin edilməsi üçün təqdimat verir;
- fakültədə olan bütün tədris-köməkçi heyətin işinə nəzarət edir, onların işə qəbulu və işdən azad olunması, eləcə də həvəsləndirilməsi və cəzalandırılması üçün SDU-nun rəhbərinə təqdimat verir;
- ayrı-ayrı kafedraların tədris yükünün düzgünlüyünü yoxlayıb, onlara rəy verir.

5.15. Kafedra universitetin (fakültənin) əsas tədris, elm struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodiki, elmi- tədqiqat, elmi-pedaqoji və elmi işçilərin hazırlanması, yenidən hazırlanması, ixtisaslarının artırılmasını və təhsilalanlar arasında tərbiyə işlərini həyata keçirir. Kafedranın əsas vəzifələri aşağıdakılardır:

- bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş mühazirələrin, laboratoriya işlərinin, praktiki seminar və digər dərslərin yüksək elmi-nəzəri və metodiki səviyyədə aparılması;
- kurs və buraxılış işlərinə (layihələrinə), istehsalat və digər təcrübələrə, tələbələrin sərbəst dərslərinə rəhbərlik edilməsi;
- cari imtahanların keçirilməsi;
- dövlət imtahanlarının təşkili və keçirilməsi;
- təhsilalanlar arasında tərbiyə işinin təşkili;
- kafedrada tədris edilən fənlər üzrə tədris proqramlarının işlənib hazırlanması və müvafiq qaydada təsdiq üçün təqdim olunması, həmçinin, digər kafedraların hazırladıqları tədris proqramlarına rəy verilməsi;
- dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik və göstərişlərin və əyani vəsaitlərin hazırlanması, rektorluğun (fakültənin) göstərişi ilə dərslik, dərs vəsaiti və tədris-metodiki ədəbiyyata rəy verilməsi;
- elmi-tədqiqat işlərinin aparılması, tələbələrin elmi- tədqiqat işlərinə rəhbərlik edilməsi;
- tamamlanmış elmi-tədqiqat işlərinin müzakirəsi, onların istehsalata tətbiq edilməsi və nəşr edilməsi üçün rəy verilməsi;
- kafedra əməkdaşlarının tədris, elmi-metodiki və digər işlərinin fərdi planlarının hazırlanması və həyata keçirilməsi;
- respublikanın və xarici ölkələrin ali məktəblərinin ayrı-ayrı kafedralarının, professor-müəllim heyətinin qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılması, gənc müəllimlərə pedaqoji təcrübə toplamaqda köməklik göstərilməsi;
- tədris prosesində müasir texniki vəsaitlərdən istifadə edilməsinə dair tədbirlər hazırlanıb həyata keçirilməsi;
- elmi-pedaqoji və elmi kadrların hazırlanması;

- kafedra əməkdaşlarının, həmçinin, rektorluğun (fakültənin) tapşırığına əsasən digər iddiaçıların dissertasiyalarının müzakirə edilib rəy verilməsi;
- tədris texnologiyaları üzrə qabaqcıl təcrübənin öyrənilməsi və onlara elmi-texniki köməklik göstərilməsi məqsədi ilə müxtəlif müəssisə və təşkilatlarla əlaqələrin təşkil edilməsi;
- müxtəlif sahələrdə çalışan mütəxəssislərin ixtisaslarının artırılmasına köməklik göstərilməsi;
- SDU-nun məzunları ilə daim əlaqənin təşkil edilməsi;
- elmi biliklərin təbliğ edilməsi.

5.16. Kafedraya rəhbərliyi qanunvericiliklə müəyyən edilimiş qaydada seçilən kafedra müdiri həyata keçirir.

Kafedra müdiri:
- kafedra iclaslarını çağırır, onlara sədrlik edir, onların qərarlarını təsdiq edir;
- kafedranın işini planlaşdırır və təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir;
- hər il kafedranın fəaliyyəti barədə hesabat təqdim edir;
- ayrılmış əməkhaqqı fondu daxilində və kafedranın büdcədənkənar vəsaiti hesabına onun ştat tərkibinə dair təklif verir;
- fakültədə, universitetdə və kənar təşkilatlarda kafedranı təmsil edir;
- kafedra müdirinin müavinləri vəzifələrinə namizədləri təqdim edir;
- kafedranın fəaliyyətinə görə kafedranın kollektivi, fakültə, SDU-nun Elmi Şurası və rəhbərlik qarşısında məsuliyyət daşıyır.

5.17. SDU-da elmi-pedaqoji (professor-müəllim heyəti, elmi işçilər), mühəndis-texniki, inzibati, inzibati-təsərrüfat, tədris-köməkçi və digər heyətlər üzrə vəzifələr nəzərdə tutulur. Bu vəzifələrə təyinolunma rektor tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 6. TƏHSİLALANLARIN, TƏHSİLVERƏNLƏRİN VƏ DİGƏR İŞÇİLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

6.1. Təhsilalanların və təhsilverənlərin hüquq və vəzifələri müvafiq olaraq Azərbaycan Respublikasının Konstitusiyası, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, SDU-nun Nizamnaməsi və daxili intizam qaydaları, eləcə də işəgötürənlərlə təhsilverənlər arasında bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

6.2. Təhsilalanların hüquqları aşağıdakılardır:
- qanunvericilikdə müəyyən olunmuş qaydada SDU-ya qəbul olunmaq;
- təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;
- dövlət təhsil standartına uyğun keyfiyyətli təhsil almaq;
- SDU-nun tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;
- SDU-nun mövcud infrastrukturundan (tədris-istehsalat, elmi-tədqiqat, informasiya, mədəni-məişət, idman-sağlamlıq mərkəzlərindən, yataqxanalarından, kitabxanalardan və s.) istifadə etmək;
- müəyyən edilmiş qaydada ali təhsil müəssisəsini və ixtisasını dəyişmək;
- elmi- tədqiqat fəaliyyəti ilə məşğul olmaq;
- fasiləsiz təhsil almaq;

- sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;
- insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;
- müəyyən olunmuş qaydada təhsilini müvəqqəti dayandırmaq;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
- ali təhsilin hər bir səviyyəsində qanunvericilikdə göstərilən hallar istisna olmaqla, yalnız bir dəfə pulsuz təhsil almaq;
- təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;
- SDU-nun elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli təşkilatlara üzv olmaq;
- elmi-praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
- müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını seçmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

6.3. Təhsilalanların vəzifələri aşağıdakılardır:
- dövlət təhsil standartına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;
- pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- SDU-nun nizamnaməsinin tələblərinə riayət etmək;
- dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;
- təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;
- SDU-nun daxili əmrlərinə və sərəncamlarına əməl etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.4. Təhsilverənlərin hüquqları aşağıdakılardır:
- normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;
- SDU-nun Nizamnaməsinə uyğun olaraq, təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;
- tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;
- şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;
- SDU-da vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;
- ixtisasını artırmaq, yeni ixtisas almaq, staj keçmək, ixtisas və elmi dərəcəsini yüksəltmək;
- müəyyən edilmiş hallarda və qaydada mükafatlandırılmaq və təltif olunmaq;
- SDU-da uzun müddət qüsursuz çalışan və onun elmi-pedaqoji həyatında mühüm xidmətləri olan professorlara aylıq əməkhaqqı və əlavələr, digər güzəştlər və imtiyazlar saxlanılmaqla, akademik və inzibati vəzifədən azad olunmaq şərtilə, məsləhətçi-professor vəzifəsini tutmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

6.5. Təhsilverənlərin vəzifələri aşağıdakılardır:
- təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
- təhsil proqramlarının mənimsənilməsini təmin etmək;
- təhsilalanlarla fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq ;
- təhsilalanları elmi fəaliyyətə cəlb etmək;

- şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbyacan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azrəbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

- pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;

- təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;

- gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;

- ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər keçirmək;

- qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;

- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.6. SDU-da akademik və inzibati vəzifələrin tutulmasının yaş həddi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Həmin yaş həddinə çatan pedaqoji işçilər akademik və inzibati vəzifə tutmamaq şərtilə, SDU-nun tədris və elmi fəaliyyətində iştirak edə bilərlər.

6.7. SDU-nun inzibati, inzibati-idarəetmə, inzibati-təsərrüfat, mühəndis-texniki, istehsal, tədris-köməkçi və digər heyətinin hüquq və vəzifələri müvafiq qanunvericiliklə, Nümunəvi Nizamnamə, bu Nizamnamə, SDU-nun daxili nizam-intizam qaydaları, eləcə də işəgötürənlərlə təhsilverənlər arasında bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

## 7. SDU-nun maliyə-təsərrüfat fəaliyyəti

7.1. SDU-nun əmlakı dövlət, bələdiyyə, təsisçi, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericilikdə qadağan olunmayan və bu Nizamnamədə öz əksini tapan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən, ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

SDU mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. SDU-nun əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti təsisçi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

SDU-nun maddi-texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsi dövlət büdcəsinin vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirilir.

SDU-nun maddi-texniki bazasına binalar, torpaq sahələri, idman-sağlamlıq mərkəzi, maşın və avadanlıqlar, müxtəlif qurğular və laboratoriyalar, tədris- təsərrüfat, nəqliyyat növləri və başqa qiymətli maddi-texniki təchizat vəsaitləri təşkil edir.

SDU-nun özəlləşdirilməsi qadağandır.

SDU-nun büdcədənkənar mənbələrdən daxil olan vəsaitlər hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxildir.

SDU-nun istifadəsinə verilmiş əmlakın geri qaytarılması qanunvericiliklə tənzimlənir.

7.2. Dövlət tərəfindən SDU-nun inkişafına dövlət büdcəsindən və digər mənbələrdən vəsaitlər ayrılır.

SDU mövcud qanunvericilik çərçivəsində bu nizamnamə ilə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak SDU-ya büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla istifadə edilir.

SDU-nun əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər.

SDU-nun maliyyələşdirilməsi təhsilin hər səviyyəsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömərli qərarına əsasən hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla müəyyən edilir.

SDU ödənişli təhsildə əldə olunan və digər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir.

Dövlət SDU-nun inkişafına, təhsilalanların təhsil haqqının və təhsillə bağlı xərclərinin ödənilməsinə uzunmüddətli və fərdi kreditlər verilməsini, elmi tədqiqat işlərinin aparılması, doktorantura proqramlarının maliyyələşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və digər məqsədlər üçün müvafiq qaydada qrantlar ayrılmasını təmin edir. Kreditlərin və qrantların verilməsi qaydaları və şərtləri müvafiq qanunvericilik aktları ilə müəyyən edilir. Dövlət təhsil və elmi tədqiqat üzrə qrantlar SDU-nun digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə yönəldilə bilməz.

7.3. SDU aşağıdakı mənbələrdən maliyyələşdirilir:

- qanunvericiliyə uyğun olaraq, dövlət büdcəsinin və yerli büdcənin vəsaitləri;
- ödənişli təhsildən əldə olunan vəsaitlər;
- hüquqi və fiziki şəxslərin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;
- müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları;
- SDU-nun təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;
- dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;
- SDU-nun mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;
- SDU-nun beynəlxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;
- qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

7.4. SDU əlavə gəlir əldə etmək məqsədi ilə "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli qərarı ilə müəyyən edilmiş sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər.

SDU sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlərdən sərbəst istifadə etmək hüququna malikdir. Sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər bilavasitə təhsilin inkişafına və işçilərin sosial müdafiəsinə yönəldilir. SDU sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə qanunvericilikdə müəyyən edilmiş qaydada hüquqi şəxslər yarada bilər və ya başqa hüquqi şəxslərin fəaliyyətində iştirak edə bilər.

7.5. SDU bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

7.6. SDU-da təhsilin dövlət təhsil standartına uyğun təşkil olunmaması nəticəsində təhsilalanların keyfiyyətsiz hazırlığı müəyyən edildiyi halda vurulmuş zərərin, o cümlədən, təhsilalanların başqa təhsil müəssisələrində yenidən hazırlanması üçün zəruri olan

xərclərin SDU tərəfindən ödənilməsi barədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən məhkəmədə iddia qaldırıla bilər.

Bu bəndin birinci abzasına uyğun olaraq, iddia yalnız akkreditasiya olunmuş təhsil müəssisəsi barədə akkreditasiya xidməti tərəfindən verilən mənfi rəyə əsasən qaldırıla bilər.

SDU öz işinin nəticələrinin cari hesabat və uçotunu həyata keçirir, qəbul olunmuş formada statistik və mühasibat uçotunu aparır, təsisçiyə vəsaitin daxil olması və xərclənməsi haqqında illik hesabat təqdim edir.

## 8. SDU-nun TƏHSİL SAHƏSİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏRİ

8.1. SDU-nun təhsil sahəsində beynəlxalq əməkdaşlığı Azərbaycan Respublikası qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir. SDU-da tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olaraq kredit sistemi əsasında təşkil edilir. Kredit sistemi üzrə tədrisin təşkili qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

8.2. SDU qanunvericiliyə və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq xarici ölkələrin təhsil və elm müəssisələri, təşkilatlar, beynəlxalq qurumlar və fondlarla birbaşa əlaqələr yarada, əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlaya, təhsil sahəsində fəaliyyət göstərən dövlət və qeyri- hökumət təşkilatlarına (ittifaqlar, birliklər, assosiasiyalar və s.) daxil ola və əməkdaşlığın digər formalarını həyata keçirə bilər.

8.3. SDU beynəlxalq səviyyəli birgə elm və təhsil layihələrinin hazırlanması, fundamental elm-tədqiqat və layihə-konstruktor işlərinin, elmi-praktik konfransların, simpoziumların keçirilməsi, tələbələrin, magistrantların, doktorantların, müəllimlərin və elmi işçilərin mübadiləsi, iddia sənədi, patent və ya bu qəbildən olan digər fəaliyyətlə müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müstəqil məşğul olmaq hüququna malikdir.

8.4. SDU fəaliyyətinin keyfiyyətini yüksəltmək və beynəlxalq əlaqələrini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarının tələblərinə riayət etməklə, öz Nizamnaməsinə uyğun, müstəqil olaraq xarici tərəfdaşlarla birlikdə ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar və s.) yaratmaq hüququna malikdir.

## 9. YEKUN MÜDDƏALAR

9.1. Bu Nizamnamə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alındığı tarixdən qüvvəyə minir.

9.2. Gələcəkdə bu Nizamnamənin hər hansı bir müddəası mövcud qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericilik müddəası tətbiq edilir.

9.3. SDU-nun fəaliyyəti ancaq təsisçinin qərarı ilə dayandırıla və ya ləğv edilə bilər bilər.